AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*   *№53 (1323), 1 - 7 sentyabr 2017-ci il*   *Qəzet 2001-ci ildən çıxır.*

## Komandamız Universiada yarışlarını 8 medalla başa vurdu




Tayvanın Taybey şəhərində keçirilən Tələbələrin XXIX Yay Universiadası başa çatıb. Universiada yarışlarında 144 ölkənin 7 min 600-dən çox idmançısı mübarizə aparıb. 21 idman növü üzrə keçirilən yarışlarda Azərbaycan atletləri də güclərini sınayıblar. İdmançılarımız unversiadanın 3 qızıl, 1 gümüş, 4 bürünc medalına sahib çıxıblar. Komandamıza qızıl medalları Nazim Babayev (atletika), Zelim Kotsoyev (cüdo, 100 kq) və Milad Beiqi Herçəqani (taekvondo, -80 kq) qazandırıblar. Taekvondoçumuz Ayxan Tağızadə (-68 kq) gümüş medala layiq görülüb. Taekvondoçularımız Radik İsayev (+87 kq), Məhəmməd Məmmədov (-63 kq), Səid Quliyev (-74 kq) və cüdoçumuz Firudin Dadaşov (90 kq) isə Tələbələrin XXIX Yay Universiadasını bürünc medalla başa vurublar. Komandamız bu nəticə ilə medal sıralamasında 24-cü yerdə qərarlaşıb.




## Olimpiya mükafatçımız dünya çempionatında da ikinci oldu

Macarıstanın paytaxtı Budapeştdə keçirilən cüdo üzrə dünya çempionatı davam edir. Yarışda 126 ölkədən 730 (440 kişi, 290 qadın) cüdoçu mübarizə aparır. Komandamız yarışda 17 (9 kişi, 8 qadın) cüdoçu ilə təmsil olunur. Çempionatın birinci günü komandamız üçün uğurlu olub. 60 kq çəki dərəcəsində mübarizə aparan Orxan Səfərov dünya çempionatının gümüş medalına layiq görülüb. Mübarizəyə 1/16 finaldan başlayan cüdoçumuz Bolqarıstan, Portuqaliya, Qazaxıstan, Özbəkistan idmançılarına qalib gələrək finala yüksəlib. Həlledici qarşılaşmada yaponiyalı Naohişa Takatoya məğlub olan cüdoçumuz dünya çempionatının gümüş medalını qazanıb. Yarışın ikinci günündə yığmamızın 2 cüdoçusu tatami üzərinə çıxıb. Komandamızın liderləri Rüstəm Orucov yarışa 1/32 finaldan başlayıb. Olimpiya mükafatçımız Kosova, Fransa, Tacikistan, Çin və Koreya idmançılarına qalib gələrək finala vəsiqə qazanıb. Həlledici görüşdə yaponiyalı Soiçi Haşimotoya "qızıl xal"la uduzan Rüstəm Orucov gümüş medala layiq görülüb.

Aktivində iki gümüş medal olan komandamız bu nəticə ilə üçüncü pillədə qərarlaşıb.

AZERBAIJAN

1992 25 2017

**Milli Olimpiya Komitəsi**

### 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT

Səh. 2

### Bədii gimnastlarımız dünya çempionatında iştirak edirlər

Avqustun 29-da İtaliyanın Pezaro şəhərində bədii gimnastika üzrə sayca 35-ci dünya çempionatına start verilib. Dünyanın istedadlı gimnastları bu yarışda 8 dəst medal uğrunda yarışırlar. Gimnastlar həm fərdi, həm də qrup yarışlarında qüvvələrini sınayırlar.

Ölkəmizi dünya çempionatında fərdi proqramda Ayşən Bayramova və Zöhrə Ağamirova təmsil edirlər.

Məlumat üçün bildirək ki, 37-ci dünya çempionatı 2019-cu ildə Bakıda keçiriləcək.



**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

### Qayğı, şərait və mənəvi məsuliyyət uğurların açarıdır

Səh. 3

### Velosiped üzrə ölkə birinciliyi başa çatıb

Azərbaycan Velosiped İdmanı Federasiyasının təşkilatçılığı ilə Veloparkda və Bakı Olimpiya Stadionu ətrafındakı yollarda çoxgünlük ötüşmələr üzrə keçirilən açıq Azərbaycan çempionatına yekun vurulub.

3 mərhələnin yekununa əsasən, gənclər kateqoriyasında 1-ci yerə yığma komandamızın üzvü Kərim Şirəliyev layiq görülüb. 2001-2002-ci il təvəllüdlü yeniyetmələr arasında isə qalib adını Qadir Mustafayev qazanıb. Fərqlənən idmançılar medal, diplom və xatirə hədiyyələri ilə təltif ediliblər.

## Olimpizm



### Pekin Qış Olimpiadasına namizəddir

Çin dövləti 2022-ci ildə növbəti Qış Olimpiya Oyunlarını yüksək səviyyədə qəbul etməyə hazırdır. Bu barədə Çin Xalq Respublikasının (ÇXR) sədri Si Tzinpin Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Baxla görüşündə deyib.

Çinin Sinxua Agentliyinin yaydığı xəbərə görə, görüş Çinin Tyantsizin şəhərində baş tutub.

"Biz ərizədə göstərilən bütün öhdəlikləri tamamilə yerinə yetirməyə hazırıq. Ölkəmiz XXIV Qış Olimpiya Oyunlarına yüksək səviyyədə ev sahibliyi edəcək", - deyə ÇXR-nın sədri deyib. O həm də əmin olduğunu bildirib ki, olimpiadaya ev sahibliyi ölkədə nəinki peşəkar idmanın inkişafına köməklik göstərəcək, eyni zamanda idmanın kütləviliyinə təkan verəcək.

Məlumat üçün bildirək ki, Pekinin XXIV Qış Olimpiadasının ev sahibliyinə namizədliyi 2015-ci ildə təsdiqlənib. Pekin olimpiada tarixində həm yay, həm də Qış Olimpiya Oyunlarını qəbul edən yeganə şəhərdir.

### WADA noyabrda qərar verəcək

Beynəlxalq Antidopinq Agentliyi (WADA) Rusiya Antidopinq Agentliyinə (RUSADA) ikinci dəfə audit göndərməyi planlaşdırır.

İyunun 27-də WADA-nın müstəqil komissiyası RUSADA-nın yenidən bərpasından sonra onun fəaliyyətində irəliləmə olduğu barədə açıqlama verib. Beynəlxalq qurum Rusiya təşkilatına müstəqil dopinq testləri keçirməyə də icazə verib. WADA sentyabrın sonunda yoxlamalara yekun vuracaq. Beynəlxalq qurum noyabr ayında auditlərin hesabatlarını dinlədikdən sonra RUSADA-nın hüquqlarının özünə qaytarılması barədə qərar verəcək.

WORLD ANTI-DOPING AGENCY

Məlumat üçün bildirək ki, 2015-ci ilin noyabrında Riçard Paundun rəhbərliyi altında WADA-nın müstəqil komissiyası RUSADA-nı bu təşkilatın üzvlüyündən məhrum edib.

### Kiber idmanı rəqabət aparacaq

Şahmat üzrə Avropa çempionu Yan Nepomnyaşiy kiber idman növünün 2024-cü ildə keçiriləcək Olimpiya Oyunlarının proqramına daxil edilməsi məsələsinə münasibət bildirib. Şahmatçı deyib: "Kiber idmanı ilə məşğul olmaq həftədə 6-7 məşq deməkdir və bu ciddi yüklənmədir. Mən şahmatı seçmişəm, amma azarkeş kimi kiber idmanı ilə də maraqlanıram.



Yeni nəsil kiçik yaşlarından kompüter və internetdən istifadəni çox gözəl bacarır. Elm və texnologiyanın inkişaf etdiyi bir dövrdə kiber idmanı ilə məşğul olanların sayı, təbii ki, artacaq. Bu o demək deyil ki, 10-15 ildən sonra "Real"-"Barselona" matçına baxmaq üçün stadion dolmayacaq. Amma kiber idmanının Olimpiya Oyunlarına daxil edilməsi bir çox şeyləri dəyişəcək. Düşünürəm ki, idmanın aparıcı növləri kiber idmanı ilə rəqabət aparmaq gücünə malikdir və kiber idmanında aparıcı idmançıların gəlirləri dünya futbol ulduzlarının gəlirləri ilə müqayisə olunacaq".

## İki boksçumuz yarımfinalda

Almaniyanın Hamburq şəhərində keçirilən kişi boksçular arasında dünya çempionatı davam edir. 1/4 final mərhələsində Azərbaycan idmançıları da mübarizə aparıblar. 75 kq çəki dərəcəsində rinqə çıxan Kamran Şahsuvalı kolumbiyalı Xorxe Vivas Palasiosla üz-üzə gəlib. Döyüş 3:2 (27:30, 29:28, 29:28, 28:29, 29:28) hesabı ilə Olimpiya mükafatçımızın xeyrinə başa çatıb. Kamran Şahsuvarlı yarımfinala yüksəlməklə, özü üçün ən azı bürünc medalı da təmin edib. Boksçumuz yarımfinalda qazaxıstanlı Abilxan Amankulla qarşılaşacaq.

1/4 final mərhələsinin son görüşündə Azərbaycan millisinin lideri Məhəmmədrəsul Məcidov (+91 kq) da rinqə çıxıb. İkiqat dünya çempionumuz bu mərhələdə Camili-Dini Aboudo-Moindze (Fransa) ilə üz-üzə gəlib. Görüş boksçumuzun 3:2 (27:30, 30:27, 28:29, 30:27, 29:28) hesablı qələbəsi ilə yekunlaşıb. Məhəmmədrəsul



Məcidov da yarımfinala yüksəlməklə, ən azı bürünc medalı özü üçün təmin edib. Təcrübəli dəri əlcək ustamız bu gün keçiriləcək yarımfinalda avstraliyalı Jozef Qudelli ilə qarşılaşacaq.

AZERBAIJAN

# Milli Olimpiya Komitəsi

1992 25 2017

(əvvəli ötən sayımızda)

# 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT

***Biz sevinirik ki, Milli Olimpiya Komitəsi idman sahəsində qısa müddət ərzində böyük nailiyyətlər əldə edibdir. İdmanın maddi-texniki bazasının yaradılması və genişləndirilməsində çox işlər görübdür və bu gün də görür, gələcəkdə də görəcəkdir.***

***Heydər Əliyev***

***Azərbaycan Milli Olimpiya Komitəsinin bu il 25 yaşı tamam olur. Yarandığı gündən etibarən beynəlxalq Olimpiya Hərəkatında özünəməxsus iz qoymağı bacaran Milli Olimpiya Komitəsi mürəkkəb və şərəfli bir yol keçib. Ötən müddət ərzində ölkənin idman və Olimpiya Hərəkatı özünün yüksək inkişaf yoluna qədəm qoyub, idman salnaməsinə qızıl hərflərlə yazılan nailiyyətlər əldə edilib. İdman və Olimpiya Hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır və yüksək səviyyəli beynəlxalq yarışlara uğurla ev sahibliyi edir.***

***Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzeti fəaliyyətə başladığı gündən Azərbaycanda idman və Olimpiya Hərəkatının təbliğinə geniş yer ayırır. Qəzet öz səhifələrində idmançılarımızın ölkə və beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri nailiyyətlər, qazanılan uğurlar barədə oxucuları müfəssəl məlumatlandırır. "Olimpiya dünyası" Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 25 illiyi münasibətilə, bu sayından başlayaraq, silsilə yazıları sizin diqqətinizə çatdırır.***

Qədim Yunanıstanda əsası qoyulmuş Olimpiya Oyunlarının gözəl ənənələrindən biri də yarışlar zamanı mədəniyyət və incəsənət tədbirlərinin keçirilməsidir. Olimpiya Oyunlarının yenidən bərpasına fransız Pyer de Kuberten 1906-cı ildə olimpiada dövründə incəsənət müsabiqələrinin təşkil olunması ideyası ilə çıxış etmişdir. 1912-1948-ci illərdə belə müsabiqələr Olimpiya Oyunlarının proqramına daxil edilmişdi. Müsabiqələrdə arxitektura, rəngkarlıq, heykəltəraşlıq işləri nümayiş olunur. Müsabiqənin laureatları Olimpiya medalları ilə mükafatlandırılırdı. Bu gözəl ənənə bu gün də davam etdirilir. Azərbaycan Milli Olimpiya Komitəsi də Olimpiya Oyunları çərçivəsində mədəniyyət və incəsənət məsələlərinə geniş yer ayırır. 1997-ci ildən başlayaraq MOK-un nəzdində Mədəniyyət Komissiyası fəaliyyət göstərir. Həmin il BOK uşaqlar arasında "Olimpiya Oyunları uşaqların gözü ilə" adı altında xüsusi müsabiqə keçirdi. MOK-un təşəbbüsü ilə bu müsabiqədə Azərbaycanın uşaq rəssamları 25 əsərlə iştirak edirlər. Ümumilikdə müsabiqəyə 47 ölkədən 1100 rəsm əsəri göndərilmişdi. Həmyerlimiz Çinarə Məmmədovanın "Tennis yarışında" əsəri 1-ci yerə layiq görülüb. Gənc rəssama BOK-un prezidenti Xuan Antonio Samaranççın imzaladığı xüsusi diplom verilib. Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ölkəmizi beynəlxalq müsabiqədə ləyaqətlə təmsil edən uşaqların adlarını xüsusi qeyd edərək İcraiyyə Komitəsinin iclasında onları MOK-un hədiyyələri ilə mükafatlandırdı.

Olimpiya Hərəkatı çərçivəsində keçirilmiş mədəniyyət tədbirlərindən biri də 1999-cu ildə BOK-un Mədəniyyət Komissiyasının YUNESKO ilə birgə təşkil etdiyi "Olimpiya, incəsənət və idman-2000" müsabiqəsi oldu. Bununla əlaqədar olaraq MOK respublikada müsabiqənin milli mərhələsini keçirmək və idman mövzusuna həsr olunmuş incəsənət əsərlərinin sərgisini təşkil etmək barədə qərar qəbul etdi. Müsabiqənin milli mərhələsinə 50 rəssamlıq və heykəltəraşlıq əsəri təqdim olunmuşdu. 1999-cu il noyabrın 5-də Mədəniyyət Nazirliyinin İçərişəhərdəki Şərq salonunda müsabiqəyə təqdim olunmuş əsərlərin sərgisi keçirildi. Həmin il dekabrın 28-də MOK-un Baş Məclisi keçirilən vaxt əsərlər ikinci dəfə təqdim olundu. Müsabiqənin nəticələrinə görə, heykəltaraşlıq üzrə Zakir Mehdiyevin "Güləş fəndi" və qrafika və rəngkarlıq üzrə Rəsul Hüseynovun "Uğursuz sıçrayış" əsəri I yerə layiq görüldü. Müsabiqənin milli mərhələsində mükafatlayiq yerləri tutmuş əsərlər beynəlxalq mərhələdə iştirak etmək üçün Lozannaya göndərildi. Bu mərhələdə Zakir Mehdiyevin "Güləş fəndi" və Telman Abbasovun "Milli güləş" tablosu 4-cü yerə layiq görüldü. Həmin əsərlər indi BOK-un Lozanna muzeyində saxlanır.

Milli Olimpiya Komitəsi respublikada idman və Olimpiya obyektlərinin tikilib istifadəyə verilməsi, bərpası ilə bağlı xeyli iş görüb. 2000-ci ildə Bakıda ilk Olimpiya İdman Kompleksi tikilərək istifadəyə verilib. Həmin ildən başlayaraq MOK-un təşəbbüsü ilə inşa olunan idman komplekslərinin sayı sürətlə artıb. Hazırda paytaxt Bakıda və regionlarda 40-dan çox Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Bu komplekslərdə idman yarışlarının və təlim-məşq toplanışlarının keçirilməsi üçün hər cür şərait mövcuddur.



Beynəlxalq Olimpiya Komitəsi bəşər tarixinin yeni əsrinin, yeni minilliyinin başlanması münasibətilə öz ölkələrində Olimpiya Hərəkatının inkişafını, Olimpiya ideallarının yayılmasını dəstəkləyən dövlət başçılarına təqdim etmək üçün xüsusi orijinal hədiyyə hazırlamışdı. Beynəlxalq Olimpiya Komitəsinin keçmiş prezidenti Xuan Antonio Samarançın Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə ünvanladığı məktubda göstərilirdi ki, Beynəlxalq Olimpiya Komitəsi 2000-ci il münasibətilə Azərbaycan dövlətinin başçısına məşhur heykəltəraş Naq Arnoldinin "2000-ci ilin Olimpiya qapıları" adlı əsərini hədiyyə edir. Həmin əsər Azərbaycan Prezidenti Heydər Əliyevə idmançılarla növbəti görüşündə təqdim edildi.

2000-ci ildə Azərbaycan idmançıları respublikanın bayrağı altında ikinci dəfə Yay Olimpiya Oyunlarında iştirak etdilər. Milli Olimpiya Komitəsinin apardığı məqsədyönlü fəaliyyət, dövlət səviyyəsində idman və Olimpiya Hərəkatına göstərilən diqqət və qayğı sayəsində Azərbaycan Olimpiya komandasının Sidneyə daha böyük heyətlə yollanmasına zəmin yaratdı. 2000-ci il avqustun 25-də Zağulbadakı "Gənclik" kompleksində XXVII Yay Olimpiya Oyunlarına gedən idmançılarla Prezidentin görüşü keçirildi. Həmin görüşdə ölkə başçısı dörd il əvvəl olduğu kimi, bu dəfə də olimpiyaçılara xeyir-duasını, tövsiyələrini verdi, onlara uğurlar arzuladı. Olimpiya Oyunlarından sonra oktyabrın



18-də Azərbaycan Prezidenti Heydər Əliyev Sidney şəhərində keçirilmiş XXVII Yay Olimpiya Oyunlarında iştirak etmiş qalib idmançılarla, onları bu qələbəyə hazırlayanlarla, ölkənin müstəqilliyini əməlləri ilə təsdiq edənlərlə görüşərək demişdir: "Bu gün, eyni zamanda, bizim idmanımızın bayramıdır. Xalqımızın idman qələbələri ilə əlaqədar olan bayramıdır".

2000-ci ildə Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları uğurla çıxış etdilər. Güləşçimiz Namiq Abdullayev və stend atıcısı Zemfira Meftahəddinova Olimpiya çempionu tituluna layiq görüldülər. 19 yaşlı gənc boksçumuz Vüqar Ələkbərov olimpiadanın bürünc medalını qazandı. Sidney Olimpiadasında 3 (2 qızıl və 1 bürünc) medal əldə edən ölkəmiz bu göstərici ilə medal sıralamasında 34-cü yeri tutdu.

Sidney-2000 Olimpiya Oyunlarından sonra ölkə Prezidentinin şəxsi təşəbbüsü və qayğısı ilə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən işlər daha da sürətləndirildi. Belə ki, 2000-ci il oktyabrın 21-də Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbərliyi altında ölkəmizdə ilk Olimpiya idman kompleksi - Bakı Olimpiya İdman Kompleksi istifadəyə verildi. Azərbaycan Prezidenti kompleksin açılış mərasimində iştirak etdi. Elə həmin gün ölkə başçısı Azərbaycanda səfərdə olan Avropa Olimpiya Komitələrinin prezidenti Jak Roqqu və AOK-un baş katibi Mario Peskanteni qəbul etdi. 2001-ci il martın 26-da Milli Olimpiya Komitəsinin yeni inzibati binasının açılış mərasimi oldu. Mərasimdə iştirak edən Azərbaycan Prezidenti MOK üzvləri və mərasimə toplaşmış qonaqlar qarşısında çıxış etdi. Ümummilli lider Milli Olimpiya Komitəsinin quruculuq işlərinin təqdirəlayiq olduğunu bildirdi və qarşıdan gələn Afina Olimpiya Oyunlarına ciddi hazırlıq işləri aparmağı tövsiyə etdi.

Milli Olimpiya Komitəsi 2001-ci ilin sonlarında daha bir idman mərkəzini tikib istifadəyə verdi. Azərbaycan Prezidenti Heydər Əliyev Bakının Maştağa qəsəbəsində inşa olunan Olimpiya İdman Mərkəzinin açılışında iştirak etdi. Ölkə rəhbəri öz çıxışında belə yüksək səviyyəli qurğuların istifadəyə verilməsinin idmanın inkişafında xüsusi əhəmiyyəti olduğunu, yeni komplekslərin tikilməsinin, bölgələrdə idmanın kütləviliyinin artırılmasının zəruriliyini vurğuladı. 2002-ci il iyunun 15-də Naxçıvan şəhərində yeni Olimpiya İdman Kompleksinin təntənəli açılış mərasimi keçirildi. Heydər Əliyev mərasimdə iştirak etdi. Ümummilli liderin iştirakı ilə həmin il sentyabrın 12-də Gəncə Olimpiya İdman Kompleksinin, avqustun 9-da isə Şəki Olimpiya İdman Kompleksinin açılış mərasimləri keçirildi.

2001-ci ildə Türkiyə Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Hərəkatına həsr olunmuş beynəlxalq karikatura müsabiqəsində ölkəmizin rəssamları da iştirak etdilər. Müsabiqədə azərbaycanlı rəssam Soltan İmaməliyevin karikatura əsəri 1-ci yeri tutdu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il dekabrın 12-də "Azərbaycan Milli Olimpiya Komitəsinin on illik yubileyi haqqında" Fərman imzaladı, yubileylə bağlı vəzifələri müəyyənləşdirdi. Azərbaycan Milli Olimpiya Komitəsinin 10 illik yubileyi 2002-ci il oktyabrın 11-də böyük təntənə ilə qeyd olundu. Heydər Əliyev yubiley tədbirində iştirak edərək, idmançılar, mütəxəssislər və qonaqlar qarşısında geniş nitq söylədi. O, ölkə idmançılarına inamını bu sözlərlə bildirdi: "İnanıram ki, bizim yüksək nailiyyətlər əldə edə bilən idmançılarımızın sayı artacaqdır. İnanıram ki, idman, bədən tərbiyəsi Azərbaycanda getdikcə kütləvi xarakter alacaqdır. İnanıram ki, Azərbaycan gəncliyi fiziki, zehni cəhətdən daha da yüksək olacaqdır".

MOK-un Mədəniyyət Komissiyası və MOK-un mətbu orqanı olan "Olimpiya dünyası" qəzeti 2002-ci ilin aprelində Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə milli karikaturaçı rəssamlar arasında müsabiqə elan etdi. Müsabiqəyə 13 rəssam tərəfindən 36 karikatura əsəri təqdim edilmişdi. İyunun 7-də əsərlərin sərgisi keçirildi. Sərgidə ölkənin görkəmli mədəniyyət və incəsənət adamları iştirak edirdilər. Karikatura müsabiqəsində Hafiz Nəsiroğlunun əsəri 1-ci yerə layiq görüldü. 2002-ci ildə MOK-un 10 illik yubileyilə əlaqədar olaraq Azərbaycanda Olimpiya Oyunları və idman mövzusunda incəsənət əsərlərinin növbəti müsabiqəsi keçirildi.

Ölkə başçısı 2003-cü il iyunun 5-də "XXVIII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" Sərəncamı imzaladı. Həmin Sərəncam Afina-2004 Olimpiadası ilə bağlı idmançılar və idman mütəxəssisləri, habelə idman qurumlarının kollektivləri üçün əvəzsiz fəaliyyət proqramı rolunu oynayırdı. Afina-2004 Olimpiya Oyunlarında atletlərimiz Azərbaycan idmanının yeni şanlı səhifəsini yazdılar. 21-ci minilliyin ilk Olimpiya Oyunlarında 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan Olimpiya komandası 5 (1 qızıl, 4 bürünc) medal qazandı. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində yarışan 22 yaşlı Fərid Mansurov qızıl medal qazanaraq Olimpiya çempionu tituluna layiq görüldü. Atıcılıq üzrə yarışlarda kiçik çaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, Sidney-2000 Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahəddinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar. Afinada yarımfinala yüksələn Azərbaycan boksçuları Ağası Məmmədov və Fuad Aslanov bürünc medal əldə etdilər.

2001-2004-cü illərdə MOK-un beynəlxalq əlaqələri daha da möhkəmləndi. Bu dövrdə Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Avropa Cüdo Federasiyasının prezidenti Marius Vizeri, Dünya Taekvondo Federasiyasının baş katibi Kim Çeul Ohonu, Beynəlxalq Otüstü Hokkey Federasiyasının prezidenti xanım Els Van Breda Vriyesmanı, Avropa Taekvondo Federasiyasının prezidenti Anastasis Proqalisi, FİFA prezidenti Jozef Blatteri, FİDE-nin prezidenti Kirsan İlyumjinovu, UEFA İcraiyyə Komitəsinin üzvü Mişel Platinini və digər idman qurumlarının rəhbərlərini qəbul etdi. Bu illərdə paytaxt Bakıda bir sıra beynəlxalq idman yarışları keçirildi. Ölkəmiz yeniyetmələrin boks üzrə I dünya çempionatına, qadınlar arasında voleybol üzrə Avropa komandalarının kuboku uğrunda yarışların final mərhələsinə yüksək səviyyədə ev sahibliyi etdi. Sərbəst güləş üzrə 45-ci Avropa çempionatı, həmin növ üzrə Dünya kuboku, gənclər arasında şahmat üzrə Avropa çempionatı, bədii gimnastika üzrə Dünya kubokunun mərhələ yarışı və digər mühüm idman tədbirləri Azərbaycanda keçirildi. 2004-cü ildə Azərbaycanda 3 idman növü -boks, taekvondo və voleybol üzrə Olimpiya lisenziya turnirinin keçirilməsi ölkəmizin dünyada artan nüfuzundan xəbər verirdi.

2005-2008-ci illərdə Azərbaycanda idmanın müxtəlif növləri üzrə 44 beynəlxalq yarış keçirilib. Təkcə 2009-cu ildə ölkəmiz 33, 2010-cu ildə isə 50 beynəlxalq yarışa ev sahibliyi edib. Bu yarışlar arasında bədii gimnastika, güləş üzrə dünya və Avropa çempionatlarını, taekvondo üzrə Avropa çempionatını, cüdo üzrə Dünya kubokunu qeyd etmək olar. Boks və bodibildinq idman növləri üzrə dünya çempionatı və s. mötəbər yarışlar da həmin dövrdə keçirilib.

Azərbaycan Milli Olimpiya Komitəsinin 2004-2008-ci illərdə beynəlxalq əlaqələri daha da inkişaf etdirilib. Beynəlxalq Olimpiya və idman qurumlarının rəhbərləri, nümayəndə heyətinin ölkəmizə səfərləri belə deməyə əsas verir. Bu dövrdə ölkə rəhbəri FİLA prezidenti Rafael Martinetti, Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandi, Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çun, Avropa Voleybol Federasiyasının prezidenti Andre Meyerin başçılıq etdiyi nümayəndə heyətini, FİFA prezidenti Yozef Blatteri və UEFA-nın prezidenti Mişel Platinini qəbul edib. Həmin illərdə Beynəlxalq və Olimpiya Komitəsinin prezidenti Jak Roqqun başçılıq etdiyi nümayəndə heyəti, Ümumdünya Karate Federasiyasının prezidenti Antonio Espinoz və digər rəsmi şəxslər Bakıda səfərdə olublar. Beynəlxalq Olimpiya və idman təşkilatları, rəsmiləri ilə sıx əməkdaşlıq Azərbaycanın beynəlxalq aləmdə tanınması və nüfuzunun artmasında, eləcə də, yüksək səviyyəli idman tədbirlərinin ölkəmizə həvalə edilməsində mühüm rol oynayır. Bu əməkdaşlıq həm də ölkə nümayəndələrinin beynəlxalq təşkilatların idarə heyətlərində, komissiyalarda yer almasında xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan Prezidenti idmançılara, onların məşqçilərinə, idman mütəxəssislərinə hər zaman xüsusi qayğı ilə yanaşır, bu insanların əməyini yüksək qiymətləndirir. Ölkədə idman və Olimpiya Hərəkatında xidmətlərinə görə idmançılar dövlətimiz tərəfindən orden və medallarla, fəxri adlarla təltif olunurlar. Azərbaycanı Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında şərəflə təmsil edən atletlərimizə ölkə rəhbərinin Sərəncamı ilə "Şöhrət" ordeni, "Tərəqqi" medalı təqdim olunur. Həmçinin idman sahəsində xidmətləri olanların sosial problemləri dövlət tərəfindən həll edilir, mənzillə mükafatlandırılırlar.

*(ardı var)*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

# Qayğı, şərait və mənəvi məsuliyyət uğurların açarıdır

***Azərbaycan dövləti gənc nəslin fiziki sağlamlığını hər zaman diqqət mərkəzində saxlayır. Məhz buna görədir ki, respublikamızın bütün bölgələrində yeni idman ocaqları istifadəyə verilib. Çünki idman fiziki sağlamlığın təməlini təşkil edir.***

***Ölkəmizin bütün guşələrində olduğu kimi, "Gənclik şəhəri" Sumqayıtda da gənc nəslin fiziki cəhətdən inkişafına xüsusi əhəmiyyət verilir. Burada gənclərin idmanla məşğul olması üçün hər cür şərait yaradılıb. Şəhərdə fəaliyyət göstərən Olimpiya İdman Kompleksi, idman məktəbləri sumqayıtlı gənclərin istifadəsindədir. Sumqayıtda istifadəyə verilən idman qurğuları, idman məktəbləri müasir tələblərlə cavab verən səviyyədə qurulduğu üçün uşaq və gənclərin marağını daha çox cəlb edib. Qeyd edək ki, əvvəllər Sumqayıtda idman ocaqlarının sayı azlıq təşkil edib. Uşaq və gənclər üçün məşqlər Mehdi Hüseynzadə adına və "İnşaatçı" stadionlarında, 1, 2 saylı Uşaq-Gənclər İdman Məktəbinin idman zallarında, "Polad", "Alüminiumçu", "Kimyaçı" idman klublarında aparılırdı. Uşaq və gənclərin bir qismi idmanla məşğul olmaq üçün şəhərin orta məktəblərinin idman zallarına üz tutmalı olurdular. İndi isə gənclik şəhərində 15-i idman kompleksi olmaqla, 211 idman qurğusu (örtülü və açıq tipli) uşaq və gənclərin ixtiyarındadır.***



## Nailiyyətlər yaradılan şəraitlə sıx bağlıdır

Gənc nəslin fiziki sağlamlığının keşiyində dayanan idman ocaqlarından biri də 1 saylı Uşaq-Gənclər İdman Məktəbidir.

Bu məktəb 1967-ci ildən fəaliyyət göstərir. Bura 2011-ci il iyulun 7-də əsaslı təmirdən sonra yenidən istifadəyə verilib. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib. 1 saylı UGİM müxtəlif idman növləri üzrə Olimpiya oyunlarının, dünya və Avropa çempionatlarının qalib və mükafatçılarını yetişdirib. Məktəbin ümumi ərazisi 3 hektardır. Qapalı tikililərin ərazisi 5500 kvadratmetrdir ki, bunun da 3000 kvadratmetri yeni tikilidir. Kompleks bir neçə korpusdan ibarətdir. Burada inzibati korpus, idman zalları, müxtəlif təyinatlı otaqlar vardır. Məktəbin futbol meydançası ən müasir tələblər səviyyəsində qurulub. Meydançaya Niderland Krallığından gətirilmiş təbii örtük döşənib. Stadionda keçirilən oyunları izləyən tamaşaçılar üçün 670 yerlik tribuna quraşdırılıb. İdman ocağında müasir drenaj sistemi qurulub. Binanın birinci mərtəbəsində boks, voleybol və basketbol zalları, üzgüçülük hovuzu, tibb otağı, sauna yerləşir. İkinci mərtəbədə isə trenajor zalı, arxiv, fitnes və tennis zalları fəaliyyət göstərir. Bundan başqa, məktəbdə tir və müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı da vardır. Buradakı boks zalında idmanın bu növü ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Ümumi sahəsi 1320 kvadratmetr olan basketbol zalı əsaslı təmir olunub və məktəbdə idmanın bu növü ilə məşğul olmaq üçün hər cür imkan yaradılıb.

Məktəbdə müasir üzgüçülük hovuzu da gənclərin ixtiyarına verilib. Uzunluğu 25 metr, ümumi sahəsi 1320 kvadratmetr olan hovuz yeni tikililər sırasındadır. Məktəbdəki fitnes zalı da müasir səviyyədə yaradılıb. Tennis zalının imkanları genişləndirilib. Zalda müasir avadanlıqlar quraşdırılıb. Məktəbin tir otağında gənclər həvəslə atıcılıq vərdişlərinə yiyələnirlər İdman ocağında iki tennis kortu yaradılıb. Yenidənqurma zamanı məktəbin həyəti abadlaşdırılıb, geniş yaşıllıq zolaqları salınıb. Binanı elektrik enerjisi ilə fasiləsiz təmin etmək üçün yarımstansiya fəaliyyət göstərir.

## Uğur sərhəd tanımır

Ən müasir avadanlıqlarla təchiz olunmuş 1 saylı UGİM öz işini təsdiq olunmuş tədbirlər planı üzrə həyata keçirib. Məlumat üçün bildirək ki, burada 5 idman növü (boks, stolüstü tennis, futbol, basketbol, üzgüçülük) üzrə bölmə fəaliyyət göstərir. Məktəbdə ayrı-ayrı idman növləri üzrə 22 məşqçi-müəllim çalışır. Burada işləyən məşqçilər idmanın inkişafında, uşaqların mənəvi keyfiyyətləri mənimsəməsində əllərindən gələni əsirgəmirlər. Onların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Təsadüfi deyil ki, məşqçilərdən beş nəfəri əməkdar məşqçi adını daşıyır. Üç nəfər isə I dərəcəli məşqçidir. Məktəbin idman bölmələrində 500-ə yaxın uşaq, yeniyetmə və gənc müxtəlif idman növlərinin sirlərinə yiyələnirlər. Onu da deyək ki, məşqçi-müəllimlər UGİM-in və Sumqayıt şəhərindəki 27, 28, 29 saylı orta məktəblərin idman zallarından istifadə edirlər. Bu zalların hər biri müasir tələblərə cavab verir və məşq prosesinin səmərəli keçməsi üçün normal şərait mövcuddur. Normal şəraitin yaradılması isə qələbələrin əsasını təşkil edir. Məlumat üçün bildirək ki, UGİM-in yetirmələri ötən il 50-yə yaxın müxtəlif səviyyəli yarışda güclərini sınayıblar. Məktəbdaxili yarışlar burada müntəzəm keçirilir. Belə ki, ötən il futbol üzrə dörd turnir (240 uşaq iştirak edib) təşkil olunub. Basketbol yarışları da dörd dəfə keçirilib. Bu yarışlarda 160 uşaq mübarizə aparıb. Boks və stolüstü tennis üzrə turnirlərdə ümumilikdə 146 idmançı qalib adı uğrunda yarışıb. Üzgüçülük turnirlərində isə 100 uşaq iştirak edib.

UGİM-in boksçuları (1999-2000-ci illər təvəllüdlü) ötən ilin yanvar ayında Bakıda "Təhsil" Respublika İdman Mərkəzinin ("Təhsil" RİM) açıq birinciliyində yarışıblar. Məktəbin üç idmançısı bu turnirdə ikinci yerə çıxıb. Həmin ay keçirilən eyni yaşlı boksçuların ölkə birinciliyində isə məktəbin dörd boksçusu qalib adı uğrunda mübarizə aparıb. Onlar iki gümüş və iki bürünc medal əldə ediblər. İdman ocağının xanım boksçusu Alyona Hacıyeva (80 kq) may ayında Çin Taypeyində keçirilən dünya birinciliyində iştirak edib. O, vətənə bürünc medalla dönüb. Avqust ayında Macarıstanda təşkil olunan Avropa birinciliyində isə Alyona gümüş medal qazanıb. Sözsüz ki, məktəbin boksçuları arasında ən yüksək nəticələr Elvin Məmişzadəyə məxsusdur. Məktəbin təcrübəli yetirməsi 2010 və 2013-cü illərdə Avropa çempionatında uğur əldə edib. O, müvafiq olaraq, gümüş və bürünc medal qazanıb. Elvinin karyerasının ən uğurlu ili isə 2015-ci il hesab olunur. Bu idmançı Bakıda təşkil olunan Avropa Oyunlarında güclü döyüş nümayiş etdirib. Əldə etdiyi qələbələr onun Avropa Oyunlarının çempionu adına layiq görülməsinə imkan yaradıb.

Elvin Məmişzadə Avropa Oyunlarından sonra Qətərin Doha şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb.

İdman ocağının stolüstü tennisçiləri də ötən il bir sıra yarışlarda iştirak ediblər. Quba rayonunda təşkil olunan peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında keçirilən zona yarışında məktəbin həm oğlan, həm də qızlardan ibarət komandaları ikinci yeri tutublar. Aprel ayında Bakıda peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında keçirilən turnirin final mərhələsində UGİM-in oğlanlardan ibarət komandası ikinci yeri tutub. Qızlardan ibarət komanda da həmin nəticəni təkrarlayıb. Bu növ üzrə təşkil olunan Azərbaycan çempionatında məktəbin qızları komanda yarışlarında ikinci pillədə yer alıblar. Fərdi yarışlarda isə Mədinə Məmmədova üçüncü yeri tutub. İdman ocağının daha bir stolüstü tennisçisi Cəlil Salahov ölkə birinciliyində ikinci olub. "Təhsil" RİM-in təşkil etdiyi açıq respublika birinciliyində UGİM-in iki komandası (oğlanlar və qızlar) mübarizə aparıb və hər iki komanda ikinci yerə layiq görülüb. Bu idman ocağının basketbolçuları bir sıra yarışlarda yüksək nəticələr qazanırlar. Buranın basketbol komandaları Quba rayonunda təşkil olunan peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında keçirilən zona yarışında birinci (qızlar) və ikinci (oğlanlar) yerləri tutublar. UGİM-in futbol üzrə komandaları U-11 və U-13 Liqasında yarışırlar. U-11 komandası Liqanın ikincisi olub. U-13 isə üçüncü yerdə qərarlaşıb.

## "İdmançılarımız həm ölkədaxili, həm də beynəlxalq arenalarda uğurla yarışırlar"

1 saylı Uşaq-Gənclər İdman Məktəbinə 2015-ci ilin avqust ayından Fuad Aslanov rəhbərlik edir. Əməkdar idman ustası, beynəlxalq dərəcəli hakim olan təcrübəli mütəxəssis Afina-2008 Yay Olimpiya Oyunlarında boks üzrə yarışlarda bürünc medal qazanıb. Fuad Aslanov Azərbaycan Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif olunub. İdmanın inkişafında xüsusi əməyi olan veteran boksçu bizimlə söhbətində rəhbərlik etdiyi məktəbin uğurlarından, ölkədə idmana göstərilən dövlət qayğısından söhbət açdı. "Məktəbimizdə təcrübəli mütəxəssislər çalışırlar. Bu cür bacarıqlı kadrların sayəsində nailiyyətlərimiz ildən-ilə artır. Məktəbimiz ən müasir tələblərə cavab verən bir idman ocağıdır. Biz çalışırıq ki, burada idmanla məşğul olan uşaq, yeniyetmə və gənclər ölkəmizin idman şərəfini ləyaqətlə qorusunlar. İstəyirik ki, bu uşaqlar vətənpərvər insanlar kimi yetişsinlər, xalqımıza, dövlətimizə layiq olsunlar. Qeyd etməliyəm ki, idmançılarımız həm ölkədaxili, həm də beynəlxalq arenalarda uğurla yarışırlar. Məktəbimizdə tədris olunan bütün idman növləri üzrə nailiyyətlərimiz var. Təkcə ötən il və bu ilin ötən aylarında əldə olunan uğurlara nəzər salmaq kifayətdir ki, yetirmələrimizin ayrı-ayrı yarışlarda ümidləri doğrultduqlarının şahidi olaq.

İdman sahəsinin inkişafı dövlətimizin əsas prioritet məsələsidir. Hazırda respublikamızın hər yerində idman məktəbləri, klublar, idman kompleksləri fəaliyyət göstərir. Azərbaycanın gənc nəslinin fiziki sağlamlığının qorunması üçün atılan addımlar hər birimizin ürəyincədir. Bizim idman ocağında da lazımi şərait mövcuddur. Çalışırıq ki, bizə göstərilən bu qayğıdan yararlanaq, etimadı doğruldaq, gənclərin həm fiziki, həm də mənəvi cəhətdən inkişafına nail olaq. Azərbaycanda idmanın inkişafı ilə bağlı həyata keçirilən işlər qəlbimizi sevinc hissləri ilə doldurur. Azərbaycan Prezidenti İlham Əliyevin idmana göstərdiyi qayğı, idman infrastrukturunun yenilənməsi, yeni idman obyektlərinin istifadəyə verilməsi ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsində mühüm rol oynayır. Avropa Oyunlarının ilk dəfə Bakıda keçirilməsi bir daha göstərdi ki, Azərbaycan güclü, qüdrətli dövlətdir. Ölkəmiz ən irimiqyaslı idman tədbirlərini təşkil etmək qüdrətinə malikdir. Birinci Avropa Oyunlarında qitənin ən güclü idmançıları Bakıya gəlmişdilər. Atletlər xalqımızın qonaqpərvərliyinin, yüksək mədəniyyətinin şahidi oldular. Avropa Oyunlarında Azərbaycan idmançılarının yüksək yerlər tutması isə xalqımıza daha böyük sevinc bəxş etdi. Əlbəttə, bütün növlərdə əldə etdiyimiz nailiyyətlərə görə sevinirəm. Boksçularımızın qələbəsi isə mənim ürəyimcə oldu. Məktəbimizin yetirməsi Elvin Məmişzadə Avropa Oyunlarında qızıl medala layiq görüldü. Azərbaycanın ev sahibliyi etdiyi irimiqyaslı yarışlardan biri, təbii ki, IV İslam Həmrəyliyi Oyunları idi. İdmançılarımız bu Oyunlarda ümumilikdə 162 medal qazandılar. Şübhəsiz ki, medalların əldə olunması heç də asan başa gəlmir. Uzun illər idman yarışlarında çıxış edən bir insan kimi bilirəm ki, bu nəticələri göstərmək üçün əzmkarlıq, iradə gərgin məşq tələb olunur. Əlbəttə ki, bu sadaladıqlarımın əsasında yaradılan şərait dayanır. Yəni şərait varsa, idmançı əzmkarlıq göstərəcək, öz iradəsini nümayiş etdirməyə çalışacaq. Şərait isə Azərbaycanda mövcuddur. Hazırda ölkəmizin bütün bölgələrində idman qurğuları var. Dediyim kimi, məhz yüksək şəraitin olması idmanda nəticələrin qazanılmasına gətirib çıxarıb. IV İslam Həmrəyliyi Oyunlarında komandamızın əldə etdiyi qələbə ölkəmizdə idmana göstərilən dövlət qayğısından bəhrələnir. Qayğı ilə əhatə olunan idmançılarımız etimadı yüksək səviyyədə doğrultmağa çalışırlar", - deyə təcrübəli mütəxəssis əlavə etdi.

## Ədalətli olmaq mənəvi saflıqdır

Fuad Aslanov idman karyerasını başa çatdırdıqdan sonra hakim kimi fəaliyyət göstərməyə başlayıb. O, beynəlxalq dərəcəli hakim kimi dünya və Avropa birinciliklərində, Yeniyetmələrin Yay Olimpiya Oyunlarında ədaləti qoruyub. Buyaxınlarda Belarusun paytaxtı Minsk şəhərində Sovet İttifaqı Qəhrəmanı Viktor Liventsevin xatirəsinə həsr olunmuş turnir həmyerlimiz üçün daha uğurlu olub. Fuad Aslanov beynəlxalq turnirin ən yaxşı hakimi adına layiq görülüb, xüsusi kubokla təltif olunub. "Miskdə keçirilən turnirdə 15 ölkədən 100-dən çox boksçu yarışırdı. Azərbaycan idmançıları Minskdə beş medal qazandılar. Himnimiz səsləndirilməsə də, üçrəngli bayrağımız Minskdə beş dəfə dalğalandırıldı. Bu, bizim üçün çox sevindirici bir hal idi. Mən beynəlxalq turnirdə ədaləti qoruyurdum. 22 hakim arasında "ən yaxşı hakim" adına layiq görüldüm. Sevindim ki, bu ad məhz azərbaycanlı hakimə verildi. Bilirsiniz, belə hallar vətənimizin adının ucaldılması baxımından qürurvericidir. Mən hər zaman çalışmışam ki, Azərbaycanın adını ləyaqətlə qoruyum. Rəhbərlik etdiyim idman məktəbində bu məsələni həmişə önə çəkməyə çalışmışam. Gənclərimiz bu yurdun, bu xalqın gələcəyidir. Onların vətən sevgisi ilə böyüdülməsi ən vacib amildir. Məktəbimizdə idmanla məşğul olan uşaqların fiziki sağlamlığı üçün əlimizdən gələni əsirgəmirik. Bu, bizim əsas vəzifəmizdir. Eyni zamanda, uşaqların kamil, vətənpərvər, ləyaqətli insanlar kimi formalaşmasına diqqət ayırırıq. Bu, bizim mənəvi borcumuzdur"- deyə Fuad Aslanov vurğuladı.

## Təcrübə artdıqca nailiyyətlər də çoxalır

Məktəbin idmançıları 2017-ci ilin arxada qalan aylarında müxtəlif səviyyəli yarışlarda çıxış ediblər. Əldə olunan nəticələri uğurlu saymaq olar. İlin əvvəlində-yanvar ayında Bakıda 2001-2002-ci il təvəllüdlü yeniyetmələr arasında boks üzrə paytaxt birinciliyi keçirilib. Turnirdə 1 saylı UGİM-in 7 boksçusu mübarizə aparıb. Onlardan üçü birinci yerə layiq görülüb. İki idmançı gümüş medal, bir idmançı isə bürünc medal qazanıb. Paytaxt birinciliyində 26 komanda (153 boksçu) mübarizə aparıb.

İdman məktəbinin yeniyetmə dəri əlcək ustaları bu ilin mart ayında Bakıda keçirilən Azərbaycan birinciliyində də yarışıblar. Birincilikdə medallar uğrunda 38 komanda (237 idmançı) mübarizə aparıb. 1 saylı UGİM-i bu yarışda beş boksçu təmsil edib. 44 kq çəki dərəcəsində mübarizəyə qoşulan Əli Zamanov I yerə layiq görülüb. Onun komanda yoldaşı Elmir Novruzov da (57 kq) fəxri kürsünün birinci pilləsində yer alıb. Məktəbin 2 yetirməsi isə ölkə birinciliyində gümüş medal qazanıb.

Ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarının təbliği ilə bağlı respublikamızın paytaxtında, eləcə də, bölgələrdə ayrı-ayrı idman növləri üzrə yarışlar keçirilib. Təbliğat xarakterli belə yarışlardan biri Sumqayıtda təşkil olunub. "Təhsil" Respublika İdman Mərkəzinin zona birinciliyi kimi keçirilən turnirdə 1 saylı UGİM-in 19 idmançısı qalib adı uğrunda mübarizə aparıb. Onlar 10 qızıl, 4 gümüş, 5 bürünc medal əldə ediblər. Bu, 1 saylı UGİM-də çalışan məşqçilərin yüksək peşəkarlığının göstəricisidir. May ayında 2003-2004-ci il təvəllüdlü boksçular arasında Sumqayıt şəhər birinciliyi keçirilib. Yarışda müxtəlif çəki dərəcələrində 73 dəri əlcək ustası mübarizə aparıb. İdman ocağı bu turnirdə böyük heyətlə-31 boksçu ilə təmsil olunub. Ümumilikdə isə medallar uğrunda 143 idmançı gücünü sınayıb. UGİM-in üzvləri 7 dəfə fəxri kürsünün birinci pilləsində yer alıblar. Buranın 7 idmançısı ikinci pillədə qərarlaşıb. 17 boksçu isə üçüncü yeri tutub. Bir sözlə, Sumqayıt şəhər birinciliyində yarışan 1 saylı UGİM-in bütün boksçuları medal qazanıblar. Məktəbin yeniyetmə dəri əlcək ustaları iyun ayında keçirilən ölkə birinciliyində də uğurla yarışıblar - 3 gümüş, 1 bürünc medal.

Bu idman ocağının basketbol komandasının da bu il qazandığı nailiyyətlər qənaətbəxşdir. Bu növ üzrə yarışlarda məktəbin iki komandası çıxış edir. Onlar bu il ərzində müxtəlif yarışlarda mübarizə apararaq 2 qızıl, 4 gümüş və 2 bürünc medala layiq görülüblər.

1 saylı UGİM-də stolüstü tennis idman növünün inkişafına xüsusi diqqətlə yanaşılır. Buranın stolüstü tennisçiləri bütün yarışlarda mükafatçılar sırasında yer alıblar. Onlar ölkə birinciliklərində, əlamətdar günlərə həsr olunmuş yarışlarda 13 dəfə fəxri kürsünün birinci pilləsində yer alıblar. Məktəbin yeniyetmələrdən ibarət futbol komandası AFFA-nın keçirdiyi Şimal zonası üzrə Azərbaycan birinciliyində üçüncü yerdə qərarlaşıb. 28 May Respublika Gününə həsr olunmuş turnirdə isə komanda ikinci yeri tutub.

İdman ocağının üzgüçüləri barədə də xoş sözlər demək olar. Üzgüçülər müxtəlif yarışlarda mükafatçılar sırasında yer almağı bacarıblar. Bu növdə ən böyük uğur isə, şübhəsiz ki, IV İslam Həmrəyliyi Oyunlarında əldə olunan nəticədir. Məktəbin yetirməsi İlahə Rəciyeva IV İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanıb. O, batterflyay növündə 100 metr məsafəni 01.03.53 saniyəyə qət edərək fəxri kürsünün üçüncü pilləsində yer alıb, həmçinin bu nəticə ilə idman ustası normasını yerinə yetirib.

Qazanılan medallar 1 saylı Uşaq-Gənclər İdman Məktəbində yaradılan şəraitin, nizam-intizamın, tələbkarlığın, peşəkarlığın göstəricisidir. Əminik ki, bu idman ocağının yetirmələri Sumqayıtın idman ənənələrini davam etdirəcək, mənəvi-fiziki sağlamlıqlarının qayğısına qalanların etimadını doğruldacaqlar.

***Hürrü Abdullayev***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Dünya mətbuatı “Qarabağ”dan nə yazır?



***Bugünlərdə azərbaycanlı azarkeşlərin ürəyi “Qarabağ”la döyünür. Ağdam təmsilçisinin Azərbaycan futbol tarixində ilk dəfə UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması azarkeşlərin arzusunu reallaşdırdı. Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev komandanın bütün üzvlərini qəbul edib, onlara uğurlar arzuladı. Həmçinin, müxtəlif ölkələrdən “Qarabağ”ın ünvanına təbriklər gəldi. Komandamızın qələbəsi Azərbaycanda futbol azarkeşlərinin ürəyincə oldu. Çünki ən azı, 3 ay ərzində Avropanın ən güclü komandaları ölkəmizə səfər edəcək.***

***Ölkə çempionumuzun tarixi uğuru nəinki yerli, eləcə də, dünya mətbuatında diqqət mərkəzinə düşüb. Dünya mətbuatı Azərbaycan futbol klubunun Avropanı fəth etməsindən yazır. “Qarabağ”a həsr olunan bir neçə yazı haqda məlumat vermək, yəqin ki, sizin üçün maraqlı olar.***

Almaniyanın nüfuzlu “Die Welt” qəzetində dərc olunmuş “Çempionlar Liqasında vətənsiz, qaçqın klub” başlıqlı yazıda qeyd olunub ki, “Qarabağ” təkcə Ağdamın deyil, bütün Azərbaycanın qürurudur. “”Qarabağ” (Ağdam) - bu komanda Çempionlar Liqasında çıxış edir. Dağlıq Qarabağ bölgəsini təmsil edən bu kiçik klub 1993-cü ildən ev oyunlarını Ağdamda keçirə bilmir. “Qarabağ” Çempionlar Liqasının qrup mərhələsində iştirak edəcək ilk Azərbaycan komandasıdır.

“Kopenhagen”lə oyundan sonra vətənə qayıdan komandanı hava limanında minlərlə azarkeş qarşıladı. Onlar oxudu, rəqs etdi və qəhrəman futbolçularına dəstək verdilər. Azarkeşlər hələ “Kopenhagen”lə oyun başa çatan kimi Bakı küçələrinə çıxaraq komandalarının zəfərini qeyd etdilər.

1990-cı illərdən başlayan Ermənistan - Azərbaycan münaqişəsi nəticəsində minlərlə azərbaycanlı öz doğma yurdundan didərgin düşüb və hələ də geri qayıda bilmir. “Qarabağ” isə “qaçqın” komanda adlanır. Klubun vətəni olan Ağdam o zamandan etibarən “ruhlar şəhərinə” çevrilib. “Qarabağ” klubu 1993-cü ildən bəri ev oyunlarını müxtəlif şəhərlərdə keçirib və nəhayət, Bakıdakı Tofiq Bəhramov adına Respublika Stadionunda qərarlaşıb. “Kopenhagen”lə oyundan sonra komandanın kapitanı Rəşad Sadıqov qürurla bildirib ki, biz çətin sınaqlardan keçmişik.



“Qarabağ” ardıcıl 4 il Azərbaycan çempionu olsa da, Çempionlar Liqasının qrup mərhələsində oynamaq bu komanda üçün çətin olacaq. Klubun illik büdcəsi 12 milyon avrodur”, - deyə Almaniyanın nüfuzlu qəzetində qeyd olunub.

Türkiyənin nüfuzlu media orqanları “Qarabağ”ın Çempionlar Liqasının qrupuna vəsiqə qazanmasını manşetlərdə veriblər. “Hürriyyət” qəzeti ““Qarabağ” tarix yazdı” başlıqlı yazıda Ağdam klubunun Azərbaycan futbolu tarixində ilk dəfə ÇL-in qrupuna düşdüyünü yazıb. “Milliyət” qəzeti isə xəbərə ““Qarabağ” Çempionlar Liqasının qrupuna düşdü” başlığı verib. Ölkənin daha bir nüfuzlu ictimai-siyasi KİV-lərindən “Habertürk.com” saytında “”Qarabağ” “Kopenhagen”ı üstələyərək Çempionlar Liqasının qrupuna düşdü” başlıqlı yazı dərc olunub.

Türkiyə mətbuatında “Azərbaycan komandası “Qarabağ” bir ilki bacardı” (“CNN Türk”ün saytı), “”Qarabağ” tarix yazdı” (“Fanatik” qəzeti), “Çempionlar Liqasında bir ilk. “Qarabağ” tarix yazdı...” (tr.beinsports.com saytı) və digər başlıqlar altında silsilə yazılar Ağdam təmsilçisinə həsr olunub.

Rusiya mətbuatı da ağdamlıların uğuruna laqeyd qalmayıb. Bu ölkənin sports.ru saytında “Qarabağ” klubu ilə bağlı maraqlı məqalə dərc olunub. Məqalədə Azərbaycan təmsilçisinin 2014-cü ildən Avropa Liqasının qrup mərhələsində çıxış etdiyi, müəyyən təcrübə qazandığı qeyd olunub. Məqalədə deyilir: “Bu klub Ağdam şəhərini təmsil edir. Ağdam 1993-cü ildə ermənilər tərəfindən işğal olunub və dağıdılıb. Buna görə də “Qarabağ” Bakıya köçüb. Sonradan Ağdamın Quzanlı qəsəbəsində yerləşib. Bir müddətdən sonra yenidən paytaxta qayıdıb. “Qarabağ” Çempionlar Liqasındakı matçlarını Tofiq Bəhramov adına Respublika Stadionunda keçirir.

Klubun baş məşqçisi Qurban Qurbanov bir vaxtlar Rusiyanın “Fakel”, “Baltika”, “Volqare-Qazprome” klublarında çıxış edib. O, 14 qolla milli komandanın bombardiridir. “Qarabağ”ın Çempionlar Liqasının qrup mərhələsində yer alması təsadüfi deyil”.

* * *

*“Qarabağ”ın tarixi uğur qazanması azarkeşlərlə yanaşı, futbol mütəxəssisləri, veteran futbolçuların sevincinə səbəb oldu. Bunu apardığımız sorğu zamanı əyani hiss etdik.*

## “Bu qələbə işğal altında olan Qarabağın qələbəsidir”

***Kazbek Tuayev (“Şöhrət” ordenli veteran futbolçu):*** “Azərbaycan Prezidenti İlham Əliyev “Qarabağ” klubu haqqında xoş sözlər dedi. Doğrudan da, bu qələbə Azərbaycanın qələbəsidir. İşğal altında olan Qarabağın qələbəsidir. Hər birimizin qəlbinə sevinc bəxş edən bu qələbə münasibəti ilə xalqımızı təbrik edirəm. “Qarabağ”ın qələbəsi Azərbaycan futbolunun inkişafının təsdiqi idi. Biz təsdiq etdik ki, ölkəmizdə futbol inkişaf edir. Bu qələbə təsadüfi qələbə deyil. Azərbaycanda idmana göstərilən dövlət qayğısının təzahürüdür. Təsadüfi deyil ki, futbol üzrə milli komandamız IV İslam Həmrəyliyi Oyunlarının qalibi oldu. Azərbaycan Prezidenti İlham Əliyevin idmana göstərdiyi xüsusi qayğı idmançılarımızın ayrı-ayrı növlər üzrə beynəlxalq yarışlarda qələbə qazanmasına çox geniş imkan yaradıb.



Çox sevinirəm ki, “Qarabağ” klubu UEFA Çempionlar Liqasının qrup mərhələsində çıxış edəcək. Düzdür, rəqiblər çox güclü klublardır. Mən proqnoz vermək istəməzdim. Ən önəmli məsələ odur ki, “Çelsi”, “Atletiko”, “Roma” kimi klublar Bakıya gələcəklər. Azərbaycanlı uşaqlar məşhur futbolçuları canlı görəcəklər. Mənə elə gəlir ki, bu, uşaqlar üçün xoş aura yaradacaq. “Qarabağ” qrup mərhələsində hansı nəticələr göstərəcəksə göstərsin, biz doğma klubumuza hörmətlə yanaşacağıq”.

## “Bu, ölkə futbolu üçün çox önəmli hadisədir”

***Robert Prosineçki (Azərbaycan milli komandasının baş məşqçisi):*** “Fürsətdən istifadə edərək, “Qarabağ”ı Çempionlar Liqasının qrup mərhələsinə yüksəlməsi münasibətilə təbrik etmək istərdim. Çünki bu, ölkə futbolu üçün çox önəmli hadisədir. Qrupa gəldikdə, Çempionlar Liqasında asan rəqib yoxdur. “Çelsi”, “Roma” güclü rəqiblərdir, “Atletiko” barədə heç danışmaq istəmirəm. Onların necə futbol oynadıqlarını bilirik. Əsas odur ki, “Qarabağ” bu işin öhdəsindən gələ, tarixi addım ata bildi. Qrup mərhələsinin startını gözləməliyik. Amma “Qarabağ” çox çətin qrupa düşüb”.



## ““Qarabağ” klubunun bu səviyyəyə çatması alqışalayiqdir”



**Böyükağa Hacıyev (AFFA-nın Məşqçilər Komitəsinin üzvü):** ““Qarabağ” klubunun bu səviyyəyə çatması alqışalayiqdir. Komanda Avropanın ən güclüləri ilə bir qrupda mübarizə aparacaq. Qurban mənim rekordumu yenilədi. Mən buna sevinirəm. Qətiyyən məndə qısqanclıq yaratmır. Çünki bu uğuru yerli məşqçimiz qazanıb. Bunu əcnəbi məşqçi etsə idi, qısqanardım.

UEFA Çempionlar Liqasının qrupunda “Qarabağ”ın bəxtinə düşən rəqiblər çətindir. Hər üç komanda - “Çelsi”, “Atletiko” və “Roma”nın gücünə bələdik. Ancaq bunun fərqi yoxdur. Ən vacibi qrupa düşmək idi. Bunu da “Qarabağ” bacardı”.

## “Son matç ərzində olduqca həyəcanlı idim...”

***Musa Qurbanov (keçmiş futbolçu):*** “Təəssüratlarım əladır. Hazırkı hisslərimi tam çatdırmağa, bəlkə də, söz tapa bilmirəm. “Qarabağ”ın hər oyununa baxanda özümü itirirəm. Son matç ərzində də olduqca həyəcanlı idim, ümumiyyətlə, özümdə deyildim. Oyundan sonra da heç yata bilməmişəm. Azarkeşlər kimi, mən də səhərə kimi şəhərdə qələbə coşğusunu qeyd etdim. Sevincimi evdə uşaqlarla bölüşdüm, gedib Qurbanın oğlunu götürdüm, şəhəri gəzdik. Amma yenə istədiyim kimi sevinə bilməmişəm.



Görüş başa çatandan dərhal sonra Qurbana zəng vurdum, hisslərimizi bölüşdük. Mən ona təşəkkürümü bildirdim, o mənə minnətdarlıq etdi. Bir az keçmişdən danışdıq, anamızı xatırladıq. Qurban və mən bir-birimizin oyunlarını həmişə qardaş gözü ilə izləmişik. Belə çox çətindir. Çünki özünü cilovlaya, toparlaya bilmirsən. Amma qələbə olanda bu hissləri keçirməyə dəyir. Əminəm ki, “Qarabağ” qrup mərhələsində keçirdiyi oyunlarla bu qrupa təsadüfən düşmədiyini sübut edəcək”.

***Rahib Səmədov***

# Güləş üzrə çəki dərəcələrində dəyişiklik edilib

Avqustun 21-26-da Fransanın paytaxtı Parisdə keçirilən dünya çempionatının gedişində Dünya Güləş Birliyi (DGB) İdarə Heyətinin növbəti toplantısı təşkil olunub. Toplantıda güləş ictimaiyyətini maraqlandıran bir sıra məsələlər müzakirə olunub və bəzi qərarlar qəbul edilib.

Müzakirə edilən məsələlərdən ən əsası və birincisi çəki dərəcələrində edilən dəyişikliklər olub. Belə ki, Dünya Güləş Birliyinin yeni qərarına əsasən, böyüklər yaş kateqoriyasında çəki dərəcələrinin sayı 8-dən 10-a qədər artırılıb. Olimpiya çəki dərəcələrinin sayı isə 6 olaraq qalıb. Beləliklə, 2018-ci ilin yanvarın 1-dən etibarən təqvim planı üzrə bütün güləş yarışları dəyişilmiş çəki dərəcələri üzrə keçiriləcək.

Yeni qaydalara görə, sərbəst güləşçilər 57 kq, 61 kq, 65 kq, 70 kq, 74 kq, 79 kq, 86 kq, 92 kq, 97 kq, 125 kq, yunan-Roma güləşçiləri 55 kq, 60 kq, 63 kq, 67 kq, 72 kq, 77 kq, 82 kq, 87 kq, 97 kq, 130 kq, qadın güləşçilər isə 50 kq, 53 kq, 55 kq, 57 kq, 59 kq, 62 kq, 65 kq, 68 kq, 72 kq və 76 kq çəki dərəcəsində yarışacaqlar. Gənclər və U-23 yaş kateqoriyasında olan güləşçilər də bu çəki dərəcələrində mübarizə aparacaqlar. Yeniyetmələr və azyaşlı yeniyetmələrin çəki dərəcələri ilə bağlı qərar isə yaxın günlərdə qəbul ediləcək.

2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XXXII Yay Olimpiya Oyunlarında güləşçilər 6 çəki dərəcəsində mübarizə aparacaqlar. Sərbəst güləşçilər olimpiadada 57 kq, 65 kq, 74 kq, 86 kq, 97 kq, 125 kq, yunan-Roma güləşçiləri 60 kq, 67 kq, 77 kq, 87 kq, 97 kq, 130 kq, qadın güləşçiləri isə 50 kq, 53 kq, 57 kq, 62 kq, 68 kq və 76 kq çəkidə xalça üzərinə çıxacaqlar.

UNITED WORLD WRESTLING

Bundan başqa müzakirə olunan güləş qaydalarında bəzi dəyişikliklər təsdiqlənib. Belə ki, bu il yeniyetmə güləşçilərin qitə və dünya birinciliklərində sınaqdan keçirilən və 2 günlük yarış proqramı üzrə təklif olunan qayda dəyişikliyi 2018-ci ilin yanvarın 1-dən bütün yaş kateqoriyalarında tətbiq ediləcək. İkinci yarış günündə normadan 2 kq artıq çəkidə güləşməyə icazə verilməsi isə yalnız 2018-ci ildə keçiriləcək yarışlarda tətbiq olunacaq. 2019-cu ilin yanvarından etibarən isə normadan artıq çəkidə güləşməyə icazə verilməyəcək.

# *Avropa çempionatı start götürdü*

Avqustun 31-də basketbol üzrə Avropa çempionatına (EuroBasket-2017) start verilib. Turnirin qrup mərhələsinin oyunları Türkiyə, Finlandiya, Rumıniya və İsraildə, bütün pley-off görüşləri isə İstanbulda keçirilir.

Qitə çempionatının favoriti İspaniya yığmasıdır. İkinci yerdə Fransa komandası dayanır.

Çempionata sentyabrın 17-də İstanbulda “Sinan Erdem Daum” arenasında yekun vurulacaq.

# Yoxlama oyununda heç-heçə qeydə alındı

Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Sloveniyada təlim-məşq toplanışını davam etdirir. Komandamız burada yoldaşlıq oyunlarında da gücünü sınayır. Voleybolçularımız növbəti yoxlama oyunu keçirib. Baş məşqçi Faiq Qarayevin yetirmələri bu dəfə Xorvatiya millisi ilə üz-üzə gəliblər. Görüş 2:2 hesablı heç-heçə ilə yekunlaşıb.



Milli Olimpiya Komitəsinin kollektivi MOK-un vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

Azərbaycan Gənclər və İdman Nazirliyinin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, Milli Məclisin deputatı Adil Əliyev Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

Azərbaycan Atletika Federasiyasının kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

Azərbaycan Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi, MOK-un üzvü, Əməkdar bədən tərbiyəsi və idman xadimi Natiq Əliyev Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

Fazil Hadıbəyov, Cəfər Hümbətov və Kazbek Tuayev Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov və idarənin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

“Olimpiya dünyası” qəzetinin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, əzizi

**Əbdülağa Cavadovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

**Baş redaktor:**
**M.Q.Fərzəliyev**

**Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168**

**AZƏRBAYCAN BEYNƏLXALQ BANKI**
**H/H AZ79IBAZ38090019449333849204**
**M/H 0137010002944**
**KOD 805250**
**VÖEN 1500306421**

**Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**
**Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.**

**Qiyməti 20 qəpikdir.**
**Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.**

***E-mail:***
**olimpiya_dunyasi@mail.ru**
***Ünvan:***
**Bakı şəhəri,**
**2-ci sülh döngəsi, 2a.**
***Tel.:*** **564-90-49; 564-90-54; 564-74-19**

**DİQQƏT!**
**Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.**